# İranda etirazlar səngimir

## 17 yaşlı yeniyetmə edam cəzasına məhkum edilib, 22 yaşlı tələbə Dünya Fərhadinin meyiti Karun çayının kənarında tapılıb



**Artıq 3 aydır İranda davam edən etiraz nümayişlərində narazı əhali tərəfindən "Edama yox!", "Bu torpaqdan qan iyi gəlir", "Xameneiyə ölüm!", "Qələbə bizimlədir!", "Azadlıq!", "Bu il başqa ildir, Seyyid Əli devrilibdir!" və digər şüarlar səsləndirilir. Son 48 saat ərzində ölkənin Yəzd, Məşhəd, Sənəndəc, Təbriz, Həmədan, Tehran və bir sıra digər şəhərlərində etiraz aksiyaları keçirilib.**



Fars vilayətinin Yəzd şəhərində etirazçılar İran İnformasiya, Kəşfiyyat və Təhlükəsizlik Nazirliyinin (ETTELAAT) nəzarət kameralarını yandırıblar.

Həfthouz meydanı yaxınlığında hökumətin etirazçıları edam etməsinə qarşı aksiya keçirilib. Aksiya iştirakçıları hökumət əleyhinə şüarlar səsləndiriblər: "İslam hökumətinə, diktatora və zalım rejimə ölüm olsun!", "And olsun dostlarımızın qanına, sona qədər mübarizə aparacağıq!" və s.

Mazandaran vilayətində İranda azadlıq yolunda verilən qurbanların qisasını almaq üçün Xameneinin nümayəndəsinin Babolsər şəhərindəki ofisinə etirazçılar tərəfindən od vurulub.

İran parlamentinin Araşdırmalar Mərkəzinin məlumatına görə, ölkədə sərmayələrin formalaşması tarixdə ilk dəfə dörd il ərzində ardıcıl şəkildə mənfi olub.

Məlumatlara görə, hazırda İslah Mərkəzində saxlanılan İlam vilayətinin Abdanan şəhərindən olan 17 yaşlı yeniyetmə Sonya Şərifi "hakimiyyətə qarşı qiyam"da ittiham olunaraq edam cəzasına məhkum edilib.

Gecə saatlarında Tehranın bir neçə bölgəsində etiraz aksiyaları keçirilib.

Çitgər məhəlləsində başlayan nümayişlərdə mövcud rejim əleyhinə müxtəlif şüarlar səsləndirilib.

Bununla yanaşı, yayılan videolarda Tehranın Baharistan şəhərinin fərmandarlıq binasının yandırıldığı əks olunub.

Bundan başqa, İranın vurduğu Ukrayna təyyarəsində həlak olanların ailələri Tehran vilayətinin hərbi məhkəməsində işə baxılması üçün üçüncü iclas aparılarkən məhkəmənin qarşısına toplaşaraq etiraz aksiyası keçiriblər.

Tehranla eyni vaxtda başqa bir neçə şəhərdə, o cümlədən azərbaycanlıların çoxluq təşkil etdiyi Kərəc şəhərində də aksiyalar keçirilib.

Əhvaz mediasının yazdığına istinadən Xuzistan əyalətində 9 gün öncə rejim qüvvələrinin apardığı 22 yaşlı tələbə Dünya Fərhadinin meyiti Karun çayının kənarında tapılıb.

Etirazlarda "Diktatora ölüm!", "Xamenei qatildir, hökuməti batildir!", "Uşaq qatili hökumətə ölüm!" və digər şüarlar səsləndirilib.

Tehranın Xacə Nəsir Universitetinin tələbələri həbsdə olan tələbələr azad olunana qədər tətil keçirəcəklərini bildiriblər.

Şərqi Azərbaycan vilayətinin Təbriz şəhərində İran rejiminin təhlükəsizlik qüvvələri qadın fəal Vahidə Xanpuru atasının evində həbs ediblər.

Xorasan-Rəzavi vilayətində Məşhəd Azad Universitetinin tələbəsi professorla siyasi müzakirədən sonra auditoriyanı tərk edib və hökumət qüvvələrinin hücumundan sonra o, intihar edib.

İsfahan vilayətinin Diziçe bölgəsində etirazçılar "Irancell" və "Raytel" mobil operatorlarının baza stansiyalarını yandırıblar.

Kürdüstan vilayətinin Dehqolan şəhərində aksiyalar zamanı hakimiyyət əleyhinə şüarlar səsləndirilib.

Qadınlar rejimin nümayişçiləri edam etməsinə qarşı etiraz məqsədilə küçələrə axışıblar. Aksiya iştirakçıları əllərini qan rənginə boyayaraq şüarlar səsləndiriblər: "Zalım hökumətə ölüm olsun! Bəsic və SEPAH, bizim İŞİD-imiz sizsiniz!"

"Gunaz.tv" telekanalının xəbərinə görə, İranın Sistan və Bəluçistan əyalətinin Zab şəhərində başlayan etiraz nümayişləri başqa şəhərlərə yayılmaqdadır. Nümayişlər zamanı onlarca bəluç həbs edilib.



Dekabrın 16-da günortadan sonra əyalət mərkəzi Zahidan şəhərində də etiraz aksiyaları başlayıb.

Sünni məzhəbli narazı etnik bəluçlar repressiyalara etiraz edib, edam hökmlərini pisləyərək "Ölüm olsun edam respublikasına!", "Xamenei, həya et, ölkəmizdən əl çək!" və digər şüarlar səsləndiriblər. Zahidan şəhərinin cümə imamı, sünni din xadimi Moləvi Əbdülhəmid isə növbəti dəfə İran hökumətinə xəbərdarlıq edib. O bildirib ki, bu gün İran xalqının əksəriyyəti narazıdır və ölkəni bu cür idarə etmək olmaz.

Əbdülhəmid hazırda İranın pul vahidi olan rialın dünyada ən dəyərsiz pula çevrildiyini deyib və ölkə əhalisinin gözü qarşısında sərvətlərin talanmasının narahatlıq doğurduğunu qeyd edib. Cümə namazı çıxışı zamanı sünni din xadimi bir daha ölkədə ayrı-seçkilik siyasətinin yürüdüldüyünü dilə gətirərək, qanunların hamıya eyni dərəcədə şamil edildiyinin vacibliyini vurğulayıb.

Bu arada ABŞ Rusiya və İran arasında artan əməkdaşlıqdan narahatlığını bildirir və onun sonda tamhüquqlu müdafiə tərəfdaşlığına çevrilə biləcəyindən ehtiyatlanır. Bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Berns deyib: "Biz kifayət qədər narahatıq. Rusiya ilə İran arasında tarixən çox böyük inamsızlıq olub, lakin onların hazırda bir-birinə ehtiyacı var. İndi ortaya çıxmağa başlayan məsələ, ən azı, Rusiya və İran arasında tammiqyaslı müdafiə tərəfdaşlığının ilkin mərhələsidir".

Onun dediyinə görə, Rusiya ilə İran arasında tərəfdaşlıq artıq Ukraynadakı döyüş meydanına təsir edir: "Bu proses davam edərsə, Yaxın Şərqə də daha təhlükəli təsir göstərə bilər. Ona görə də biz bunu çox ciddi qəbul edirik".

Son məlumata görə, İranda əmanətçilər rejimə etiraz olaraq öz pullarını banklardan çıxarır. Lakin hökumət bankları nağdlaşdırma əməliyyatlarına limit tətbiq edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2022.- 18 dekabr.- S.8.